# Keniyanın Beynəlxalq Sülhə Dəstək Təlim Mərkəzinin direktoru ilə görüş keçirilib



Azərbaycanın minatəmizləmə sahəsində mübarizədə dövlətlərarası tərəfdaşlığın təşviqi məqsədilə Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev bu ölkənin Beynəlxalq Minalardan Təmizləmə Mərkəzinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Sülhə Dəstək Təlim Mərkəzinin (IPSTC) direktoru xanım Joys Sitienei ilə görüşüb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Beynəlxalq Mərkəzin iqamətgahında keçirilmiş görüşdə S.Hacıyev direktora səfirliyin fəaliyyəti, ölkəmizin Ulu Öndər Heydər Əliyev siyasi kursuna əsaslanan inkişaf yolu, dövlətimizin başçısının rəhbərliyi ilə uğurla davam etdirilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Proqramı" haqqında məlumat verib.

Diplomat ölkəmizin 30 illik erməni işğalı nəticəsində dünyada minalarla ən çox çirklənmiş ölkələrdən birinə çevrildiyini deyib, həmsöhbətini dağıntı və insan tələfatı haqqında məlumatlandırıb.

Bu gün məcburi köçkünlərimizin öz doğma yurd-yuvalarına geri qayıdışı üçün minaların ən böyük maneə olaraq qaldığı qeyd edilib.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) humanitar minatəmizləmə sahəsində gördüyü işlər haqqında da Beynəlxalq Mərkəzin direktoruna məlumat verən səfir ölkəmizin humanitar minatəmizləmə sahəsində qabaqcıl texnologiyaları (minaların yerini müəyyən edən dronlar, peyk dəstəyi, minaaxtaran itlər) tətbiq edən dövlətlərdən biri olduğunu bildirib.

Beynəlxalq Minatəmizləmə Təlim Mərkəzi kimi tanınan məktəbin 2005-ci ildə Böyük Britaniya və Keniyanın birgə təşəbbüsü olaraq, minaların sosial, iqtisadi və ətraf mühitə təsirinin azaldılmasına yönəlmiş minatəmizləmə əməliyyatlarında iştirak edəcək regional hərbi personalın potensialının artırılması məqsədilə yaradıldığı diqqətə çatdırılıb.

Görüşdə IPSTC-nin Azərbaycanın minatəmizləmə sahəsində fəaliyyət göstərən müvafiq qurumu ilə əməkdaşlığının qurulmasının, hər iki ölkənin təcrübəsinin öyrənilməsi üçün qarşılıqlı səfərlərin təşkilinin vacibliyi vurğulanıb.

Azərbaycan.- 2025.- 1 iyun (№113).- S.2.